*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 338–343
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 338–343
DOI: https://doi.org/10.36719/2706-6185/60/338-343

# Qlobal iqtisadi transformasiya şəraitində yaşıl iqtisadiyyatın formalaşması və institusional inkişaf mərhələləri

**Nihad Əmirov**

***Xülasə.*** *Məqalədə XXI əsrdə qlobal iqtisadi inteqrasiyanın dərinləşməsi fonunda artan ekoloji təzyiqlər və bu kontekstdə yaşıl iqtisadiyyat modelinin formalaşması məsələsi araşdırılır. Mövzunun aktuallığı iqlim dəyişiklikləri, resurs qıtlığı, enerji təhlükəsizliyi və sosial bərabərsizlik kimi çoxölçülü çağırışların mövcud iqtisadi artım modelinin dayanıqlığını sual altına alması ilə əsaslandırılır. Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın nəzəri əsaslarını, institusional inkişaf mərhələlərini və qlobal normativ çərçivəyə inteqrasiyasını sistemli şəkildə təhlil etməkdir. Tədqiqatın obyekti yaşıl iqtisadiyyat konsepsiyası, predmeti isə onun iqtisadi artım, karbon emissiyaları, resurs səmərəliliyi və sosial rifah kimi dəyişənlərlə qarşılıqlı əlaqəsidir. Əhatə olunan dövr əsasən 2008-ci il qlobal maliyyə böhranından sonrakı mərhələni və 2015-ci ildən etibarən formalaşmış iqlim və davamlı inkişaf çərçivəsini əhatə edir. İşdə müqayisəli təhlil, institusional analiz və sənəd araşdırması metodlarından istifadə olunmuşdur. Nəticələr göstərir ki, yaşıl iqtisadiyyat iqtisadi artımı təbii kapitalın qorunması və aşağı karbonlu transformasiya ilə uzlaşdıran alternativ model kimi formalaşmışdır.*

***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, qlobal iqtisadi transformasiya, iqlim dəyişiklikləri, iqtisadi artım, enerji təhlükəsizliyi*

---

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: amirov.nihad.sohrab.2024@unec.edu.az
Daxil oldu: 31 Dekabr 2025; Qəbul edildi: 25 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Formation of Green Economy and Stages of Institutional Development in the Context of Global Economic Transformation

**Nihad Amirov**

***Abstract.*** *The article examines the growing environmental pressures against the backdrop of deepening global economic integration in the 21st century and the formation of a green economy model in this context. The relevance of the topic is justified by the fact that multidimensional challenges such as climate change, resource scarcity, energy security and social inequality question the sustainability of the current economic growth model. The aim of the study is to systematically analyze the theoretical foundations of the green economy, its institutional development stages and its integration into the global normative framework.*

*The object of the study is the concept of green economy, and its subject is its interaction with variables such as economic growth, carbon emissions, resource efficiency and social welfare. The period covered mainly covers the period after the 2008 global financial crisis and the climate and sustainable development framework that has been formed since 2015. The methods of comparative analysis, institutional analysis and document research were used in the study. The results show that the green economy has been formed as an alternative model that reconciles economic growth with the protection of natural capital and low-carbon transformation.*

***Keywords:*** *green economy, global economic transformation, climate change, economic growth, energy*

---

Azerbaijan State University of Economics, Master's student, Baku, Azerbaijan
E-mail: amirov.nihad.sohrab.2024@unec.edu.az
Received: 31 December 2025; Accepted: 25 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

XXI əsrdə qlobal iqtisadi inteqrasiyanın sürətlənməsi, istehsal və istehlak miqyasının genişlənməsi ilə yanaşı, ekoloji sistemlər üzərində artan təzyiq dünya iqtisadiyyatının dayanıqlılıq məsələsini ön plana çıxarmışdır. İqlim dəyişiklikləri, təbii resursların tükənməsi, su və enerji təhlükəsizliyi problemləri, biomüxtəlifliyin azalması və sosial bərabərsizliyin dərinləşməsi mövcud iqtisadi artım modelinin struktur məhdudiyyətlərini üzə çıxarmışdır. Bu baxımdan yaşıl iqtisadiyyat konsepsiyası iqtisadi inkişaf ilə ekoloji dayanıqlılıq arasında tarazlığın təmin edilməsinə yönəlmiş alternativ model kimi aktuallıq qazanmışdır. Mövzunun işlənmə səviyyəsinə gəldikdə, beynəlxalq təşkilatların hesabatlarında, ekoloji iqtisadiyyat məktəbinin nümayəndələrinin əsərlərində və qlobal siyasət sənədlərində yaşıl iqtisadiyyat geniş şəkildə təhlil olunsa da, onun nəzəri əsaslarının, institusional mərhələlərinin və qlobal iqlim çərçivəsinə inteqrasiyasının sistemli şəkildə bir arada araşdırılması zərurəti qalmaqdadır.

Tədqiqatın obyekti yaşıl iqtisadiyyat konsepsiyası, predmeti isə iqtisadi artım, karbon emissiyaları, resurs səmərəliliyi və sosial rifah arasında qarşılıqlı əlaqələrin yaşıl transformasiya kontekstində təhlilidir. Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın formalaşma mərhələlərini, nəzəri və institusional əsaslarını, həmçinin qlobal iqlim və davamlı inkişaf gündəliyi ilə əlaqəsini kompleks şəkildə araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün iqtisadi artım modeli, təbii kapitalın dəyəri, karbon intensivliyi, enerji strukturu və sosial inklüzivlik kimi əsas dəyişənlər təhlilə cəlb edilmişdir. İşdə əsas informasiya bazası kimi BMT qurumlarının, İƏİT və digər qlobal institutların hesabatları, elmi monoqrafiyalar və analitik sənədlər istifadə edilmişdir. Tədqiqat metodları sırasında müqayisəli təhlil, institusional analiz, sənəd araşdırması və sistemli yanaşma tətbiq edilmişdir. Tədqiqat nəticələrinin nəzəri əhəmiyyəti yaşıl iqtisadiyyatın inkişaf mərhələlərinin ardıcıllıqla təhlil olunması və onun iqtisadi nəzəriyyədə alternativ artım modeli kimi əsaslandırılmasındadır.

## Tədqiqat

XXI əsr qlobal iqtisadi inteqrasiyanın dərinləşməsi, istehsal və istehlak miqyasının genişlənməsi ilə xarakterizə olunsa da, bu proses paralel şəkildə ekoloji gərginliyin artması ilə müşayiət olunur. İqtisadi artımın sürətlənməsi bir tərəfdən rifah səviyyəsinin yüksəlməsinə şərait yaradırsa, digər tərəfdən təbii sistemlər üzərində təzyiqi gücləndirir. Hər bir ölkənin iqtisadi strukturu, sənayeləşmə səviyyəsi, enerji balansı və institusional idarəetmə xüsusiyyətləri fərqli olduğundan ekoloji

problemlər də müxtəlif formalarda və intensivlikdə təzahür edir. Sənaye yönümlü iqtisadiyyatlarda atmosfer emissiyaları və sənaye tullantıları ön plana çıxırsa, aqrar və ya resurs ixracına əsaslanan ölkələrdə torpaq deqradasiyası, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi daha qabarıq görünür.

Müasir mərhələdə iqlim dəyişiklikləri, atmosfer və hidrosferin çirklənməsi, bərk və təhlükəli tullantıların idarə olunmasında institusional boşluqlar, eləcə də qeyri-bərpa olunan resursların tükənməsi qlobal miqyasda sistemli xarakter almışdır. Bu problemlər artıq lokal ekoloji hadisə deyil, iqtisadi təhlükəsizlik, sosial sabitlik və ərzaq təminatı ilə birbaşa bağlı olan çoxölçülü risk faktoruna çevrilmişdir. Məhz bu kontekstdə iqtisadi inkişaf modelinin yenidən nəzərdən keçirilməsi zərurəti meydana çıxmış və ekoloji məhdudiyyətləri nəzərə alan alternativ yanaşmaların formalaşmasına təkan vermişdir. Davam edən maliyyə və ekoloji böhranlar göstərmişdir ki, ənənəvi "artım naminə artım" prinsipi struktur baxımından davamlı deyil və uzunmüddətli perspektivdə həm iqtisadi, həm də ekosistem sabitliyini zəiflədir. Bu çərçivədə formalaşan yaşıl iqtisadiyyat yanaşması iqtisadi artım ilə ekoloji dayanıqlılıq arasında tarazlığın qurulmasını hədəfləyir. Akademik müstəvidə bu anlayışın nəzəri əsaslandırılmasında Devid Pirin "Blueprint for a Green Economy" əsəri mühüm rol oynamışdır (Barbier, 2022).

Demoqrafik dinamika bu prosesləri daha da mürəkkəbləşdirir. Dünya əhalisinin artımı ərzaq, su, enerji və torpaq ehtiyacını genişləndirir, halbuki təbii kapitalın bərpa potensialı məhduddur. Əhali artımı ilə paralel olaraq istehlak standartlarının yüksəlməsi resurslara olan təzyiqi daha da artırır. Bu kontekstdə əsas problem artıq yalnız artımın təmin edilməsi deyil, artan tələbatın ekoloji limitlər daxilində qarşılanmasıdır. Əks halda, iqlim riskləri ilə yanaşı, qida təhlükəsizliyi, sosial sabitlik və regional təhlükəsizlik məsələləri daha da kəskinləşəcəkdir.

2008-ci ilin qlobal maliyyə böhranı fonunda iqtisadi sistemlərin struktur zəiflikləri daha aydın şəkildə üzə çıxdı və bu kontekstdə ekoloji baxımdan dayanıqlı investisiya modelinə keçid məsələsi beynəlxalq gündəmin prioritetinə çevrildi. Məhz bu şəraitdə 2008-ci ilin oktyabrında Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən "Green Economy Initiative" adlı təşəbbüs irəli sürüldü. Təşəbbüsün əsas məqsədi yaşıl sektorlara yönələn investisiyaların iqtisadi səmərəliliyini təhlil etmək, dövlət siyasətlərinin uyğunlaşdırılmasını təşviq etmək və ekoloji risk daşıyan sənaye sahələrinin struktur transformasiyasını dəstəkləmək idi. Burada əsas ideya ondan ibarət idi ki, iqtisadi bərpa yalnız maliyyə sabitliyi ilə məhdudlaşmamalı, eyni zamanda resurs səmərəliliyini artıran və karbon intensivliyini azaldan struktur dəyişikliklərlə müşayiət olunmalıdır. Beləliklə, böhrandan çıxış strategiyası ekoloji modernləşmə ilə uzlaşdırılmalı idi. Bu yanaşma tədricən beynəlxalq səviyyədə geniş dəstək qazandı. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) yaşıl artım konsepsiyasını inkişaf etdirərək iqtisadi siyasətlərin təbii kapitalın qorunması ilə uyğunlaşdırılmasına dair metodoloji çərçivə təqdim etdi. Eyni zamanda Ümumdünya Vəhşi Təbiət Fondu və Beynəlxalq Təbiəti Mühafizə Birliyi kimi qurumlar ekosistem xidmətlərinin iqtisadi dəyərinin tanınması və biomüxtəlifliyin qorunması istiqamətində normativ təşəbbüslərlə çıxış etdilər. Beləliklə, yaşıl iqtisadiyyat təkcə hökumətlərarası platformalarda deyil, həm də vətəndaş cəmiyyəti institutları səviyyəsində çoxsəviyyəli dəstək qazanan inkişaf modelinə çevrildi. Nəzəri baxımdan yaşıl iqtisadiyyatın konseptual əsaslarının sistemləşdirilməsində 2010-cu ildə Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı tərəfindən nəşr olunan "Green Economy: Why, What and How" adlı toplu mühüm rol oynadı. Bu nəşrdə yaşıl iqtisadiyyatın mahiyyəti, tətbiq mexanizmləri və makroiqtisadi təsirləri müxtəlif tədqiqatçılar tərəfindən təhlil edilmiş, anlayışın həm normativ, həm də praktik ölçüləri izah edilmişdir (Dasgupta, 2021).

Yaşıl iqtisadiyyatın təşəkkül prosesi təsadüfi ideoloji çağırış deyil, mərhələli şəkildə formalaşmış institusional və normativ çərçivənin nəticəsidir. Bu istiqamətdə ilk sistemli təşəbbüslərdən biri 2008-ci ildə qlobal maliyyə böhranı fonunda Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı

(UNEP) tərəfindən irəli sürülmüş Green Economy Initiative olmuşdur. Təşəbbüsün əsas məntiqi iqtisadi dirçəliş strategiyalarını yalnız fiskal və monetar stimullaşdırma vasitələri ilə deyil, eyni zamanda ekoloji investisiyalar və struktur modernləşmə ilə əlaqələndirmək idi. Beləliklə, böhrandan çıxış modeli "bərpa + transformasiya" prinsipi üzərində qurulurdu. UNEP-in 2011-ci ildə təqdim etdiyi Towards a Green Economy: Pathways to Sustainable Development and Poverty Eradication hesabatında göstərilir ki, ümumi daxili məhsulun illik təxminən 2%-nin enerji, kənd təsərrüfatı, su təsərrüfatı, nəqliyyat və tullantıların idarə edilməsi kimi əsas yaşıl sektorlara yönəldilməsi uzunmüddətli perspektivdə ənənəvi, yüksək karbonlu "qəhvəyi iqtisadiyyat" modelindən daha dayanıqlı artım trayektoriyası yarada bilər (Bowen və Kuralbayeva, 2021). Hesabatın arqumentinə görə, belə investisiyalar yalnız ekoloji riskləri azaltmaqla kifayətlənmir, eyni zamanda yeni məşğulluq imkanları formalaşdırır, texnoloji yenilənməni sürətləndirir və makroiqtisadi sabitliyə töhfə verir. Sənəddə xüsusi vurğulanır ki, resurs məhsuldarlığının artırılması və karbon intensivliyinin azaldılması paralel şəkildə yoxsulluğun azaldılmasına xidmət edə bilər; yəni ekoloji modernləşmə sosial inklüzivliklə ziddiyyət təşkil etmir, əksinə onu gücləndirə bilər (IEA, 2023). Sonrakı mərhələdə yaşıl iqtisadiyyat konsepsiyası daha operativ və ölçülə bilən siyasət alətlərinə transformasiya olunaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən "yaşıl artım" (green growth) çərçivəsində konkretləşdirilmişdir. OECD-nin Towards Green Growth (2011) və Green Growth Indicators (2014) sənədlərində iqtisadi artımın təbii kapitalın qorunması ilə uzlaşdırılması üçün indikator əsaslı qiymətləndirmə sistemi təqdim edilmişdir. Bu sistem karbon intensivliyi, enerji məhsuldarlığı, material səmərəliliyi, innovasiya göstəriciləri və ekosistem aktivlərinin vəziyyəti kimi ölçülə bilən parametrlər vasitəsilə siyasətin effektivliyini izləməyi nəzərdə tutur (UNEP, 2021). İƏİT yanaşmasına görə, iqtisadi artım yalnız ÜDM artımı ilə ölçülməməli, onun resurs istifadəsi və emissiya strukturu ilə əlaqəsi də nəzərə alınmalıdır. Təşkilatın məlumatları göstərir ki, yaşıl texnologiyalara və aşağı karbonlu infrastruktur layihələrinə investisiya edən ölkələrdə enerji intensivliyi daha sürətlə azalmış, bərpa olunan enerji sektorunda isə məşğulluq səviyyəsində artım qeydə alınmışdır (IRENA, 2022). Bu fakt yaşıl transformasiyanın iqtisadi dinamika ilə ziddiyyət təşkil etmədiyini, əksinə innovasiya və struktur yenilənmə vasitəsilə rəqabət qabiliyyətini gücləndirə biləcəyini göstərir.

Qlobal iqlim risklərinin intensivləşməsi yaşıl iqtisadiyyatın yalnız konseptual deyil, həm də normativ baxımdan möhkəmlənməsinə təkan vermişdir. 2015-ci ildə qəbul edilmiş Paris Sazişi çərçivəsində dövlətlər qlobal orta temperatur artımını sənaye öncəsi dövrlə müqayisədə 2°C-dən aşağı səviyyədə saxlamaq və 1.5°C həddinə mümkün qədər yaxınlaşdırmaq öhdəliyini götürmüşlər (IRENA, 2023). Bu öhdəlik faktiki olaraq iqtisadiyyatların dekarbonizasiyasını və enerji sistemlərinin struktur transformasiyasını tələb edir. Temperatur hədəfləri yalnız ekoloji deyil, həm də makroiqtisadi planlaşdırma, enerji siyasəti və investisiya prioritetlərinin yenidən müəyyənləşdirilməsi məsələsidir. IPCC-nin Altıncı Qiymətləndirmə Hesabatında vurğulanır ki, 2030-cu ilə qədər qlobal emissiyalarda kəskin azalma təmin edilmədiyi halda 1.5°C trayektoriyasını qorumaq mümkün olmayacaq (IPCC, 2023). Bu isə göstərir ki, mövcud siyasətlər və könüllü öhdəliklər kifayət deyil; iqtisadi sistemin karbon intensivliyini azaltmaq üçün daha radikal və koordinasiyalı tədbirlər tələb olunur. Belə şəraitdə yaşıl iqtisadiyyat aşağı karbonlu inkişaf modelinin yalnız ideoloji çərçivəsi deyil, həm də fiskal mexanizmlər, karbon qiymətləndirilməsi alətləri, texnoloji innovasiya və yaşıl maliyyə vasitəsilə həyata keçirilən praktik institusional platforması kimi çıxış edir. Digər tərəfdən, demoqrafik dinamika və resurs təzyiqi yaşıl transformasiyanın qaçılmazlığını gücləndirir. Birləşmiş Millətlər Təşkilatının 2022-ci il World Population Prospects hesabatına görə, dünya əhalisinin 2050-ci ildə 9,7 milyarda çatacağı proqnozlaşdırılır (United Nations, 2022).

Əhali artımı istehlakın miqyasını genişləndirir, urbanizasiyanı sürətləndirir və enerji, su, ərzaq və torpaq ehtiyatlarına olan tələbatı artırır. Eyni zamanda, Dünya Bankının məlumatları göstərir ki, 2050-ci ilə qədər qlobal su tələbatının 20–30% artacağı gözlənilir (World Bank, 2023). Bu göstərici xüsusilə su stressi yaşayan regionlarda sosial-iqtisadi gərginliyin artmasına səbəb ola bilər. Bu

dinamika onu göstərir ki, mövcud istehlak və istehsal modelləri struktur baxımdan dəyişdirilməzsə, resurs qıtlığı, torpaq və su deqradasiyası, biomüxtəlifliyin azalması kimi proseslər dərinləşəcək. Yəni problem təkcə emissiyaların azaldılması deyil, eyni zamanda resurs məhsuldarlığının artırılması və təbii kapitalın bərpa potensialının qorunmasıdır. Bu baxımdan yaşıl iqtisadiyyat iqlim siyasəti ilə demoqrafik və resurs planlaşdırmasının inteqrasiyasını təmin edən kompleks inkişaf çərçivəsi kimi formalaşır.

Beləliklə, yaşıl iqtisadiyyatın formalaşması mərhələli və çoxsəviyyəli proses olmuşdur: ilkin nəzəri əsaslandırma mərhələsindən (Pearce və ekoloji iqtisadiyyat yanaşması), 2008-ci ildən sonrakı institusional təşəbbüslərə, 2015-ci ildən etibarən isə qlobal iqlim və davamlı inkişaf çərçivəsinə inteqrasiya mərhələsinə keçid baş vermişdir. Müasir inkişaf modelləri iqtisadi artımı təbii kapitalın qorunması, karbon emissiyalarının azaldılması və sosial rifahın artırılması ilə uzlaşdırmağa yönəlmişdir. Mövcud elmi hesabatlar göstərir ki, alternativ yoxdur: resurs səmərəliliyi, aşağı karbonlu texnologiyalar və inklüziv siyasətlər olmadan qlobal iqtisadi sistem uzunmüddətli dayanıqlılıq təmin edə bilməyəcəkdir.

## Nəticə

Aparılan təhlil göstərir ki, yaşıl iqtisadiyyat konsepsiyası təsadüfi ideoloji çağırış deyil, qlobal iqtisadi və ekoloji böhranların yaratdığı struktur zərurətin nəticəsidir. İqlim dəyişikliklərinin intensivləşməsi, resurs qıtlığı, demoqrafik təzyiq və sosial bərabərsizlik kimi çoxölçülü risklər mövcud inkişaf modelinin məhdudiyyətlərini açıq şəkildə nümayiş etdirir. Son illərin beynəlxalq hesabatları sübut edir ki, iqtisadi artımın davamlılığı yalnız karbon intensivliyinin azaldılması, resurs məhsuldarlığının artırılması və təbii kapitalın qorunması ilə uzlaşdırıldığı halda təmin oluna bilər. Bu baxımdan yaşıl iqtisadiyyat fiskal alətlər, yaşıl maliyyə mexanizmləri, innovasiya siyasəti və institusional islahatlar vasitəsilə reallaşdırılan kompleks transformasiya modelidir. Müasir mərhələdə əsas çağırış konsepsiyanın nəzəri əsaslandırılmasından daha çox onun praktik tətbiqində siyasət koordinasiyasının, hüquqi mexanizmlərin və maliyyə resurslarının effektiv səfərbər edilməsidir.

## Ədəbiyyat

1. Barbier, E. B. (2022). Greening the post-pandemic recovery in the G20. *Environmental and Resource Economics, 81*(2), 355–376.
2. Bowen, A., & Kuralbayeva, K. (2021). Looking for green jobs: The impact of green growth on employment. *Climate Policy, 21*(8), 1062–1078.
3. Dasgupta, P. (2021). *The economics of biodiversity: The Dasgupta review*. https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/962785/The_Economics_of_Biodiversity_The_Dasgupta_Review_Full_Report.pdf
4. International Energy Agency (IEA). (2023). *World energy outlook 2023*. https://iea.blob.core.windows.net/assets/WorldEnergyOutlook2023.pdf
5. IPCC. (2023). *Climate change 2023: Synthesis report*. https://www.ipcc.ch/report/ar6/syr/downloads/report/IPCC_AR6_SYR_LongerReport.pdf
6. IRENA. (2022). *World energy transitions outlook 2022*. https://www.irena.org/publications/2022/Mar/World-Energy-Transitions-Outlook-2022
7. IRENA. (2023). *Renewable capacity statistics 2023*. https://www.irena.org/Publications/2023/Mar/Renewable-Capacity-Statistics-2023
8. OECD. (2021). *Towards green growth: Monitoring progress*. https://www.oecd.org/green-growth/monitoring-progress-2021.pdf
9. OECD. (2023). *Climate action monitor 2023: Policies for a net zero transition*. https://www.oecd.org/climate-action-monitor-2023.pdf

10. UNDP. (2023). *Human development report 2023/2024: Breaking the gridlock*. https://hdr.undp.org/system/files/documents/global-report-document/hdr2023-24reporten.pdf
11. UNEP. (2021). *Making peace with nature*. https://www.unep.org/resources/making-peace-nature-report
12. UNEP. (2023). *Emissions gap report 2023*. https://www.unep.org/resources/emissions-gap-report-2023
13. United Nations DESA. (2022). *World population prospects 2022*. https://population.un.org/wpp/Publications/Files/WPP2022_Summary.pdf
14. World Bank. (2021). *The changing wealth of nations 2021*. https://openknowledge.worldbank.org/handle/10986/36400
15. World Bank. (2023). *World development report 2023: Migrants, refugees, and societies*. https://openknowledge.worldbank.org/handle/10986/40060